Tarixin səhifələrini vərəqlədikcə, Şuşa haqqında daha çox fakt, daha çox gerçəklik özünü göstərir. Uzun illər bu şəhər Azərbaycanın Qarabağ xanlığının paytaxtı olub. Elə Şuşa qalasının salınması da xanlığın dövrünə – 1750–1751-ci illərə təsadüf edir. Qarabağ xanı Pənah Əli xan Şuşanı paytaxt elan edib oranı möhkəmləndirmiş, qala-şəhərə çevirmişdi. Şəhər bir müddət Pənah Əli xanın şərəfinə "Pənahabad", sonradan isə "Şuşa qalası" və "Şuşa" adlandırılmışdı. Şəhərin Seyidli, Culfalar, Quyuluq, Çuxur məhəllə, Hacı Yusifli, Çöl qala, Qurdlar və s. olmaqla 17 məhəllesi vardı. Xanlıq dövründə şəhərin ərazisi qısa müddət ərzində xeyli böyüyüb, təbii gözəlliyi artıb, hündür binaları və möhtəşəm qala divarları əzəmətli görünüşə malik olub. Şuşaya əbəs yerə mədəniyyət məbədi deyilmirdi, şəhərin özü boyda tarixi abidələri var. Ümumiyyətlə, şəhərdə 549 qədim bina, daş döşənmiş küçələr, 17 məhəllə bulağı və məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi.

# Zəfər yürüşün uğurlu olsun, yenilməz Ordumuz!



***Azərbaycan Ordusunun sentyabrın 27-dən başladığı haqq mübarizəsi, işğalda olan torpaqlarımızın azadlığı uğrunda əks-hücum əməliyyatı yüksək səviyyədə və tam üstünlüklə davam edir. Ordumuz yeni tarix yazır. Bu günlərdə bütün xalqımızın qəlbinin döyündüyü tək məbəd Qarabağdır. Bir həsrətimiz də Qarabağın göz bəbəyi Şuşadır. O Şuşa ki, Azərbaycanın ən qədim tarixini özündə yaşadır, milli mədəniyyətimizin mərkəzi, poeziyamızın, musiqimizin beşiyi hesab edilir. Bu qədim şəhər həm də Şərq ölkələrinin mədəniyyət mərkəzlərindən biri kimi özünün milli memarlıq üslubu ilə seçilir, orta əsrlər şəhərsalma sənətinin qiymətli abidələrinin mərkəzidir.***

Qeyd edim ki, hələ XIX əsrin sonunda Şuşada 17 məscid fəaliyyət göstərib. Şəhərin tanınmış məscidlərindən Aşağı Gövhər ağa məscidi, Yuxarı Gövhər ağa məscidi, Culfalar, Hacı Yusifli, Köçərli, Mamay, Mərdinli, Quyuluq, Saatlı, Seyidli, Çöl Qala, Xoca Mərcanlı, Təzə məhəllə məscidləri və digərlərini qeyd etmək olar. Bundan əlavə, hər biri danışan sənət nümunəsi olan Xan, Qaxal mağaraları, Şuşa qalası, Xurşidbanu Natəvanın, artilleriya generalı Mehmandarovun, şair – rəssam Mir Möhsün Nəvvabın ev muzeyləri, İbrahim xanın və onun qızı Qara Böyükxanımın qəsrləri, "Gəncə darvazaları", əsas ticarət mərkəzi olan "Rastabazar", gözəl memarlıq üslubu ilə inşa olunan digər tikililəri ilə şəhər hər kəsi valeh edirdi.

Üzeyir Hacıbəyov, Xan Şuşinski, Cabbar Qaryağdıoğlu, Rəşid Behbudov, Qurban Pirimov, Seyid Şuşinski, Fikrət Əmirov, Süleyman Ələsgərov, Niyazi kimi incəsənət xadimlərinin Vətəni olmuş Şuşanı "Şərqin konservatoriyası" da adlandırırlar.

Təəssüflər olsun ki, bu qədər özəlliyi ilə fərqlənən Şuşa tarix boyu bəlalardan da yan keçmədi. Müxtəlif dövrlərdə həmişə kimlərinsə göz dikdiyi məkana çevrilən alınmaz qala-şəhər ermənilərin xain planları ilə işğal olundu. Bu işğal özü ilə barbarlıq, vəhşilik, nankorluq da gətirdi. Qarabağın gözəllik simvolunun çöhrəsinə 8 may 1992-ci ildən etibarən qara buludlar çökdü. Şuşanın könüllüləri, yerli əhalisi hər şeyə rəğmən ermənilərin və onların havadarlarının hücumları qarşısında mərdliklə vuruşurdu. Bütün çətinliklərə baxmayaraq, ölkəmiz üçün strateji əhəmiyyətini nəzərə alan döyüşçülər əsil qəhrəmanlıq göstərərək alınmaz qala Şuşanı qorumağa çalışırdılar. Lakin Şuşa xəyanətin qurbanı oldu... Qarabağın göz bəbəyinin işğalı nəticəsində 22 təhsil müəssisəsi, 8 mədəniyyət evi, 14 klub, 20 kitabxana, 7 məktəbəqədər uşaq-tərbiyə ocağı, onlarca xəstəxana, 2 kinoteatr, tarixin yadigarlarını qoruyb saxlayan 3 muzey, Şərq musiqi alətləri fabriki və digər obyektlər dağıdıldı, minlərlə yaşayış evi viran qoyuldu, talandı.

O qara günlərdən – qanlı tarixdən keçən 28 il ərzində təkcə şuşalıların ürəyində deyil, bütün Azərbaycanın qəlbində sönməz Şuşa yanğısı, Cıdır düzü həsrəti var. Şuşa da o vaxtdan öz sakinlərindən ayrı boynu bükük, xarı bülbülü solğun, səması qara buludlar içində qalıb. Lakin biz heç zaman torpaqlarımızın işğaldan azad olunacağına olan inamımızı itirmədik. Çünki arxalanacağımız güclü ordumuz və bu inamı öz sözləri, gördüyü işləri ilə dəfələrlə təsdiq edən Prezidentimiz İlham Əliyev var. Dövlət başçısının qeyd etdiyi bir sitatı xatırlatmaq istəyirəm: "Azərbaycanın işğal altında qalan torpaqlarını nə yolla olursa, olsun azad etmək imkanları böyükdür". Tarix göstərdi ki, bu sözlər həqiqətdir.

2016-cı ilin şanlı Aprel döyüşləri, ardınca 2018-ci ilin Günnüt əməliyyatı, 2020-ci ilin iyul ayında başlayan Tovuz döyüşləri zamanı qüdrətli Azərbaycan Ordusunun şücaəti göstərdi ki, igidlərimiz tərəfindən Lələtəpəyə sancılan bayrağımız tezliklə Şuşada dalğalanacaq! Artıq o günlər uzaqda deyil, biz Şuşaya da, Kəlbəcərə də, Laçına da çox yaxınıq. İgid oğullarımızın qəhrəmanlığı nəticəsində bu günlərdə Füzuliyə, Cəbrayıla, tarixi Xudafərin körpüsünə, Zəngilana əzəmətli üçrəngli bayrağımız sancıldı. Vətən torpaqları mənfur düşmən tapdağından təmizləndi. Azərbaycan Ordusu yeni tarix yazır. Növbəti qələbə xəbərinin Şuşadan gələcəyini gözləyirik. Prezident İlham Əliyev deyib: "İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

Bəli, Şuşasız bizim işimiz yarımçıq qalar və dünya şahiddir ki, türk oğlu işini yarıda qoymaz! İnşallah, müzəffər ordumuzun Şuşaya daxil olduğu günü də görəcəyik. Bu, 50 milyon azərbaycanlının istəyidir. İnamlı zəfər yürüşün uğurlu olsun, yenilməz ordumuz!

***Aydın TAĞIYEV,***
***Mədəniyyət Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin sektor müdiri***

Xalq qəzeti 2020.- 22 oktyabr.- S.6.